PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.12-21
https://doi.org/10.30546/30015.2025.4.014

# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ QARABAĞDAKI YENİDƏNQURMA PROSESİNDƏKİ ROLU: REGİONAL ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİ

**A.A. Hacıyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Milli Azərbaycan Tarix Muzeyi, Bakı, Azərbaycan
e-mail: hajiyeva_aliya04@mail.ru

**Xülasə.** Bu araşdırma TDT-nin mövcudluğunu əsas götürərək Türk dövlətləri arasında inkişaf edən əməkdaşlıq perspektivlərini və təşkilatın müharibədən sonrakı dövrdə Qarabağda təsirini elmi çərçivədə qiymətləndirməyi hədəfləyir. TDT çərçivəsində Qarabağda həyata keçirilən humanitar və infrastruktur layihələri, təhsil, səhiyyə və digər sahələrdə verilən konkret töhfələr, yayımlanan siyasi bəyanatlar və icra olunan əməkdaşlıqlar məqalədə araşdırılmışdır.

**Açar sözlər:** Türk Dövlətləri Təşkilatı, Qarabağ, yenidənqurma, regional əməkdaşlıq.

## Giriş

II Qarabağ müharibəsində parlaq qələbə qazandıqdan sonra, Azərbaycan 30 il müddətində işğal altında qalan tarixi torpaqlarını geri qaytarmağa müvəffəq oldu. Müharibədən sonra Azərbaycanın qarşısında artıq yeni hədəflər və perspektivlər yaranmışdı. Başlıca vəzifələrdən biri isə uzun müddət işğal altında qalan və dağıntılara məruz qalmış əraziləri yenidən bərpa etmək və öz doğma torpaqlarından didərgin düşən azərbaycanlıların yurdlarına güvənli və rahat dönüşünü təmin etmək idi. Qarabağı yenidən dirçəltmək, onun Azərbaycan iqtisadiyyatına, turizminə, mədəniyyətinə yenidən qazandırılması demək idi. O cümlədən Azərbaycanın regionda güclü bir dövlət kimi həm siyasi, iqtisadi, həm də mədəni sahələrdə özünü doğrultduğunun da ifadəsi idi. Bu istiqamətdə ilk addımlar müharibədə qələbə qazanıldıqdan dərhal sonra artıq atılmağa başlanmışdır.

Qarabağ bütün zamanlarda həm region dövlətlərinin, həm də dünyanın böyük dövlətlərinin daim diqqət mərkəzində, maraq dairəsində olmuşdur. Təbiidir ki, həyata keçirilən bu bərpa və yenidənqurma işlərində Azərbaycan yalnız çalışmayacaq və dünyanın bir çox dövlətlərinin dəstəyindən istifadə edəcəkdir və hal-hazırda da istifadə etməkdədir. Bu yalnız Azərbaycan üçün bərpa prosesində dəstək əldə etmək deyildi, həmçinin bərpada iştirak edən və ona dəstək olan dövlətlərlə bir çox sahələrdə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafına zəmin yaradacaqdır. Onu da qeyd etmək yerinə düşər ki, Qarabağ uzun müddət yalnız Azərbaycan üçün deyil, həm də region və dünya dövlətlərinin bir çoxu üçün də olduqca böyük əhəmiyyət kəsb etmişdir. Ümumiyyətlə, Azərbaycanın Cənubi Qafqazdakı əlverişli strateji-

coğrafi, siyasi, iqtisadi mövqeyi və Qarabağın regionda gedən proseslərin tam mərkəzində olması ona olan diqqətin və marağın əsas səbəblərindən biri idi. Məhz bu kimi səbəblərdən dolayı, Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərində bir çox dövlətlər iştirak etməyə maraqlı idilər. Çünki bu proses sadəcə Azərbaycanın deyil, həmin dövlətlərin də qarşısında yeni perspektivlərin açılmasına imkan yaradırdı.

**Qarabağda Türk Dövlətləri Təşkilatının strateji və regional əməkdaşlığı**. Qələbədən sonra Qarabağdakı bərpa və quruculuq işlərində Azərbaycana dəstək olmağa çalışanlar arasında Türk dövlətləri ön sırada dayanır. Azərbaycan da bu xüsusda öncələyi qardaş dövlətlərə verməyi üstün tuturdu. Həm eyni soykökdən gəlmə, ortaq türk mədəniyyətinə, türk milli kimliyinə sahib olma, həm də regionda və dünyada gedən siyasi, iqtisadi və mədəni proseslərdə bir-birilərinə daim dəstək olmaları bu məramı açıqlayırdı. Türk Dövlətləri Təşkilatının Azərbaycanla olan əlaqəsi və təşkilata üzv dövlətlərin bərpa və quruculuq işlərində Azərbaycana verdiyi dəstək sadəcə tərəflər arasında olan əlaqələrin güclənməsi və inkişafına təkan vermir, həmçinin Türk dünyası arasındakı mövcud əlaqələri gücləndirməklə, qalıcı inkişafa zəmin yaradırdı. Türk Dövlətləri Təşkilatının böyük regional güc olma potensialını da artırır.

Əsası 2009-cu il oktyabr ayının 3-də Naxçıvan şəhərində qoyulan Türk Dövlətləri Təşkilatı Türk dövlətlərinin həm siyasi, həm iqtisadi, həm də mədəni baxımından birliyini təmin etmək məqsədilə yaradılmışdır [2]. Təşkilata daxil olan dövlətlər: Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və üç müşahidəçi dövlət: Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstan II Qarabağ müharibəsində Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi uğrunda apardığı müharibənin haqlı bir mübarizə olduğunu vurğulamışdılar. Müharibədən sonra Qarabağda həyata keçirilən tikinti və quruculuq işlərində də yaxından iştirak etməyə dəvət edilmişdilər. Bu yolda atılan ən önəmli addımlardan biri də məhz 2024-cü il iyulun 6-da Türk Dövlətləri Təşkilatının dövlət başçılarının növbəti zirvə görüşünün Qarabağın göz bəbəyi, Türk dünyasının və İslam dünyasının mədəniyyət paytaxtı olan Şuşada keçirilməsi olmuşdur. İlham Əliyev zirvə görüşündəki çıxışı zamanı Azərbaycanın Türk Dövlətləri Təşkilatına və Türk dövlətlərinin birliyinə verdiyi önəmi xüsusi vurğulamışdır: "Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir" [3].

**TDT üzvü Türkiyənin Qarabağda bərpa və yenidənqurma layihələrində iştirakı.** Türk Dövlətləri Təşkilatının üzvü olan və Azərbaycanın siyasi, iqtisadi və mədəni əlaqələrində

çox böyük yeri olan Türkiyə Cümhuriyyəti Qarabağın bərpa və yenidənqurulması işində yaxından iştirak etməkdədir. Türkiyə Azərbaycana olan dəstəyini daim ifadə etmiş və Azərbaycanın mübarizəsinin haqlı olduğunu deməkdən çəkinməmişdir. İstər müharibə dövründə, istərsə də müharibədən sonrakı dövrdə Türkiyənin Azərbaycana olan mövqeyi və dəstəyi dəyişməmiş, əksinə iki ölkə arasında olan siyasi, iqtisadi və mədəni əlaqələr Qarabağın geri qaytarılmasından sonra daha da artırılmışdır. Təbiidir ki, qələbədən sonra Azərbaycan da daim onu dəstəkləyən dövlətlərin, xüsusilədə Türkiyənin Qarabağda həyata keçiriləcək bərpa və yenidənqurma tədbirlərində iştirakını istəmiş və bununla əlaqədar iki dövlət arasında razılaşdırmalar həyata keçirilmişdir. Prezident İlham Əliyevin dediyi kimi, "Hədəfimiz Qarabağı dünyanın ən gözəl bölgələrindən birinə çevirməkdir. Əlbəttə ki, ilkin tərəfdaşlarımız türk qardaşlarımızdır". Böyük Qayıdış"ın ilk mərhələsi olan işğaldan azad edilmiş torpaqların minalardan təmizlənməsi və zəruri infrastrukturla (yol, su, elektrik və s.) təmin edilməsi prosesində Türkiyə yaxından iştirak etmişdir. Azərbaycana Türkiyə tərəfindən 20-ə yaxın minatəmizləyən maşın göndərilmişdir [4]. O cümlədən, Qarabağda çəkilən bir çox yol infrastruktur layihələrinin həyata keçirilməsində Türkiyə şirkətləri yaxından iştirak etmişdir. Hətta Azərbaycan hökuməti tərəfindən yenidənqurma və bərpa prosesi zamanı inşaat layihələrində Türkiyə modelinin istifadə olunması istiqamətində qərar qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2020-ci il noyabrın 17-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalanmışdı. "Zəfər yolu" adını almış bu yolun tikintisi yerli şirkətlə yanaşı məhşur türk şirkəti olan "Kolin inşaat"la birgə həyata keçirilmişdi. Layihəyə əsasən bu yolun və onun üzərində inşa olunan körpü və tunellərin inşasının bir hissəsini Türkiyə şirkətləri həyata keçiriblər. Bundan başqa Azərbaycanda "Zirvə Holdinq", "Kalyon Holdinq", "Cengiz" kimi bir sıra nüfuzlu türk şirkətləri də Qarabağda bərpa və quruculuq işlərində uğurla fəaliyyət göstərirlər [5].

Prezidentin 2021-ci il mayın 29-da imzaladığı sərəncama əsasən Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqları türk şirkətlərə icarəyə verilmişdir. Sərəncamda qeyd edilmişdir ki, Azərbaycanın normativ hüquqi aktlarına uyğun olaraq Qaşqaçay filiz yatağı "Eti Bakır A.Ş." şirkətinə, Elbəydaş və Ağduzdağ filiz yataqları "Artvin Maden A.Ş." şirkətinə öyrənilmə, tədqiqat, kəşfiyyat, işlənmə və istismar məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilsin." Bu qızıl yataqları işğaldan yeni azad olunan Kəlbəcər rayonunda yerləşir. "Eti Bakır A.Ş" 2004-cü ildə Cengiz Holdinqin tərkibinə daxil edilən şirkətdir.

2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi" imzalanmışdır. "Şuşa Bəyannaməsi" ilə də

qarşılıqlı əməkdaşlıq əlaqələri daha yüksək bir mövqeyə çatmış, Türkiyə dövlətinə bağlı olan şirkətlərin Qarabağın bərpası prosesində xüsusi fəallıqla iştirak etməsinə zəmin yaratmışdır. Bunu "Azərbaycan-Türkiyə İş Adamları Birliyi" (ATİB) İdarə Heyətinin sədri Cemal Yanqının çıxışı da açıq şəkildə göstərir. O bildirmişdir ki, "Avropadakı, Afrikadakı bütün türk şirkətlərini Qarabağın bərpası üçün dəvət edərək bildirirəm ki, Azərbaycanda iş görmək üçün əlverişli mühit var və burada hər hansı bir problemlə üzləşməyəcəksiniz. Qarabağda hazırda infrasturktur işləri gedir və bitdikdən sonra o bölgə çox müasir və inkişaf edən bir yer olacaq" [1].

Qarabağda həyata keçirilən, bölgənin bərpası və yenidənqurulmasında önəmli rol oynayan layihələrdən biri də "Dost Aqropark" layihəsidir. "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunması əsas götürülən "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərməyi planlaşdırır. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Bu da, bölgəyə köçürülən əhalinin iş yerləri ilə təmin edilməsi, ərazinin iqtisadi inkişafını təmin edəcək. Həmçinin bu kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə  də mühüm töhfə verəcək [6].

**Qazaxıstanın Qarabağda həyata keçirilən bərpa işlərində dəstəyi.** Qarabağda həyata keçirilən bərpa və quruculuq tədbirlərində iştirak edən dövlətlərdən biri də Türk Dövlətləri Təşkilatının üzv dövlətlərindən biri olan Qazaxıstan Respublikası idi. Müharibədən sonra Qazaxıstanın Qarabağın bərpa və quruculuq işlərində ilk yardım edən dövlətlərdən biri olması, onun Azərbaycana olana dəstəyinin göstəricisi idi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev də çıxışı zamanı bir daha vurğulamışdır. 2024-cü il noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub. Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzalayıblar. Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı qeyd edib ki, "Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və yaşıl enerji sahəsində fəal

əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Qarabağın bərpasında bizə ilk yardım edən ölkələr Özbəkistan və Qazaxıstandır. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına yaradıcılıq mərkəzi bu gün qardaşlığımızın bariz sübutudur" [7]. 2024-cü il mart ayının 12-də Füzulidə "Böyük Qayıdış" proqramı nəzdində Qazaxıstan Respublikası tərəfindən Azərbaycana hədiyyə olaraq tikilmiş və Qarabağın bərpasına dəstək məqsədi daşıyan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimi baş tutub. Açılışda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev iştirak etmişdilər. Qazaxıstanın Respublikasının Prezidenti çıxışı zamanı qeyd etmişdir ki: "Bu Mərkəz Qazaxıstan xalqı adından bizim hədiyyəmizdir. Hökumətin tapşırığına və mənim şəxsi göstərişimə əsasən "BI Group" özəl şirkəti bu hədiyyəni səmimi-qəlbdən, bütün xalqın adından təqdim edir. Zənnimcə, bu obyekt şübhəsiz ki, ölkələrimiz arasında rifahın, bütün əlaqələrin, hərtərəfli münasibətlərin möhkəmləndirilməsinə töhfə olacaq. Sizə uğurlar, tərəqqi arzulayıram. Heç bir şübhə yoxdur ki, Azərbaycanın müqəddəs regionu güclü inkişaf edəcək" [8, s.9]. Həmçinin Qazaxıstan Respublikası Qarabağda Elm və Təhsil sahəsinin yenidənbərpası və qurulması işində də Azərbaycana dəstəyini Qarabağ Universitetinin fəaliyyətinə dəstək və bir sıra Qrant proqramların həyata keçirilməsi ilə də göstərir. Belə ki, Qazaxıstanın elm və ali təhsil naziri Sayasat Nurbek çıxışı zamanı qeyd etmişdir ki: "Qazaxıstanın və Azərbaycanın rəhbərləri strateji əməkdaşlıq və təhsil sahəsində çox dəqiq istiqamətlər müəyyən ediblər. Elm bu vacib sahələrdən biridir və biz bu sahədə çox irəliləyiş əldə etmişik. Hər il azərbaycanlı tələbələrin Qazaxıstanda təhsil alması üçün 12 tam təqaüd təqdim edirik. Azərbaycanın Elm və Təhsil Nazirliyi ilə birgə elmi qrant proqramının yaradılmasını müzakirə edilir. Bir çox mühüm aspektlərdən biri isə Qarabağ Universitetinə dəstək verməkdir. Biz bu münasibətləri sadəcə strateji əməkdaşlıq və qardaş ölkə kimi deyil, həm də Türk dünyasının bir hissəsi olaraq qiymətləndiririk. Qarabağ Universitetinə azı 10-15 ən yaxşı müəllim göndərəcəyik. Bu müəllimlər ingilis dilində dərs deyəcək və onlar riyaziyyat, biologiya, kimya, süni intellekt, kompüter mühəndisliyi sahələrində ən yaxşı mütəxəssislərimiz olacaq. Bununla yanaşı, Qarabağda təhsil almaq üçün xüsusi təqaüd proqramı yaratmaq üzərində işləyirik. Bu proqramla regionumuzdan olan tələbələr Qarabağda təhsil ala biləcəklər" [10].

Həmçinin "Qardaşlaşmış Qarabağ Məktəbləri" layihəsi çərçivəsində də Qazaxıstan Respublikası Azərbaycana dəstəyini göstərmişdir. Belə ki, Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə "ZƏFƏR" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və Qazaxıstanın Türküstan vilayətində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan Etnomədəni

Birliyinin birgə təşkil etdiyi IV Yay Düşərgəsi layihəsi həyata keçirilmişdir. Düşərgədə Qazaxıstanın Türküstan vilayətində fəaliyyət göstərən "Qarabağ" etnomədəni birliyinin "Həftəsonu Qarabağ məktəbi"ndən 10 və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası zamanı müxtəlif vaxtlarda şəhid olmuş qəhrəmanlarımızın 10 övladı iştirak edib. Düşərgə "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq "Azərbaycandan Yaşıl Dünya Naminə" devizi altında təşkil edilib [11]. Qazaxıstan Respublikasının Almatı şəhərində "Qarabağda 30 illik ekoterror həqiqətləri" layihəsi çərçivəsində tədbir həyata keçirilib.

**Özbəkistanın Qarabağda bərpa və yenidənqurma tədbirlərində iştirakı.** Türk Dövlətləri Təşkilatının üzv dövlətlərindən olan Özbəkistan da Azərbaycana olan dəstəyini əsrigəməmişdir, Qarabağda həyata keçirilən işlərdə iştirak etməyə çalışmışdır. Qeyd edək ki, Özbəkistan Respublikası Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü prinsiplərinə uyğun şəkildə həyata keçirilməsinin tərəfdarı olmuşdur. Beynəlxalq və regional arenada Azərbaycana dəstək olmuşdur. Bu baxımdan Özbəkistan Respublikası tərəfindən Qarabağda Füzuli şəhərində 960 şagird yeri olan məktəb inşa edilib və artıq vətəndaşlarımızın xidmətinə verilmişdir. Özbəkistan Respublikası tərəfindən Füzulidə bu məktəbin tikintisi iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir, bunu Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev də öz çıxışında bildirmişdir: "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır". 2023-cü il avqust ayının 23-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib [12].

**Qırğızıstan, Türkmənistan və Macarıstanın Qarabağda yenidənqurma prosesinə qoşulması və regional əməkdaşlıq perspektivləri.** Qırğızıstanın Qarabağın bərpa işində dəstəyi. Qarabağın yenidən qurulması işində iştirak edən Türk dövlətləri Təşkilatına üzv dövlətlərdən biri də Qırğızıstan Respublikasıdır. Azərbaycan və Qırğızıstan arasında olan əməkdaşlıq hər zaman dostluq və qardaşlıq mövqeyindən həyata keçirilmişdir. İki türk ölkəsi

arasında dərin tarixi, mədəni və dil köklərinə malik etimad münasibətləri Qırğızıstan-Azərbaycan əməkdaşlığının bütün sahələrində öz əksini tapır. II Qarabağ müharibəsindən sonrakı dövrdə də Qırğızıstan dəstəyini əsirgəməmişdir. Azərbaycana olan dəstəyini göstərmək məqsədilə Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərində iştirak etmişdir. 2024-cü il aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər. 2025-ci il iyulun 3-də hər iki ölkə prezidentləri Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər [13]. Azərbaycanın və Qırğızıstanın dövlət başçılarının 2024-cü ilin aprel ayında təməlini qoyduqları Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışı da bu zaman həyata keçirilmişdir. Qırğızıstan Republikasının prezidenti və dövlət rəsmiləri dəfələrlə Qarabağda səfərdə olmuş, burada həyata keçirilən bərpa və yenidənqurma işləri ilə yaxından tanış olmuşlar. Bu addımlar iki qardaş ölkə arasında olan birliyin, dostluğun və dəstəyin bariz göstəricisidir. Prezident İlham Əliyevin və Qırğızıstan prezidenti Sadır Japarovun çıxışları da bunu bir daha təsdiq edir: “Belə qardaşlıq hədiyyəsinə görə əziz qardaşım Sadır Nurqojoyeviçə minnətdarlığımı bildirir, Qırğızıstan və Azərbaycan xalqlarına sülh, firavanlıq, inkişaf və əmin-amanlıq arzulayıram. Qırğızıstanın kiçik bir parçası artıq həmişə burada, sevimli Ağdam torpağımızda qalacaq.” “Biz indicə Azərbaycanın Xıdırlı kəndində Manas adına orta məktəbi açdıq. Əminəm ki, bu tarixi hadisə mənəvi əlaqələrimizi daha da möhkəmləndirəcək. Bizim ümumi dəyərlərimiz var və onları gələcək nəsillərə ötürməyə borcluyuq. Bişkekdəki Heydər Əliyev adına məktəb və Xıdırlı kəndindəki Manas adına bu məktəb xalqlarımızın dostluğunun rəmzidir” [14].

Türk Dövlətləri Təşkilatının müşahidəçi dövləti olan Türkmənistan Respublikası da Azərbaycanın Mərkəzi Asiyada əsas ticarət tərəfdaşlarından biridir. Qeyd etmək yerinə düşər ki, Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlərin Qarabağda bərpa və yenidənqurma işlərində iştirakı, dövlətlər arasında əlaqələrin yeni inkişaf yoluna qədəm qoyması və tərəflər arasında yeni perspektivlər yaratması təşkilatın digər üzvlərinin də yaxın gələcəkdə burada həyata keçirilən işlərdə iştirakı üçün zəmin yaradır və təşviq edirdi. Bu sırada çox yaxın zamanda Türkmənistan Respublikası da Qarabağda bərpa və yenidənqurma işlərinə töhfə verəcəyini açıqlamışdır [15]. Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov 2025-ci il iyul ayında Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı 2025-ci il iyul ayının 17-də Füzuli və Şuşa şəhərlərində olmuş, burada prezident İlham Əliyevlə birgə həyata keçirilən yenidənqurma və bərpa işləri ilə yaxından tanış olmuşdur. Sədr səfərdə olarkən Prezident İlham Əliyevlə Füzuli rayonunda məscidin tikintisi, habelə Füzuli və Arxadağ şəhərlərinin qardaşlaşması ilə bağlı razılığın əldə olunduğunu bildirmişdir [16].

TDT-nin müşahidəçi dövlətlərindən biri olan Macarıstan Respublikası da yaxın zamanlarda Qarabağda həyata keçirilən bərpa və yenidənqurma işlərində Azərbaycana dəstək verməyə başladı. Belə ki, 2024-cü ildə Şuşada TDT-nin Zirvə Görüşü keçirilən zaman prezident İlham Əliyev tərəfindən Macarıstan Respublikası tərəfindən Cəbrayıl rayonunda məktəb inşa ediləcəyi bildirilmişdir. Bu da təbii ki, tərəflər arasında olan dostluq və birliyin əyani göstəricisidir [17].

**Nəticə**

Türk Dövlətləri Təşkilatının Qarabağın bərpa və quruculuq işlərində iştirakı, Azərbaycana dəstəyi özünü yuxarıda sadaladığımız bir sıra məsələlərin həllində və həyata keçirilən layihələrdə aydın şəkildə göstərir. Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi zirvə görüşündə Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi, enerji sahəsində Türk Dövlətlərinin strateji tərəfdaşlığı, "Rəqəmsal İpək Yolu", Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi və iqtisadi sahədə əlaqələrin dərinləşməsinin təmin edilməsi, bunun sayəsində yeni bir çox layihələrin həyata keçirilməsi və s. önəmli məsələlər müzakirə olunmuşdur. 2024-cü il iyul ayının 6-da Şuşada imzalanmış "Qarabağ" bəyannaməsi, həmin zirvə toplantısı nəzdində müzakirə olunan və qəbul edilən digər qərarlar həm Türk Dövlətlərinin həmrəyliyini təmin etməklə, həm də Türk Dövlətləri Təşkilatının beynəlxalq arenada nüfuzunun və gücünün artmasına xidmət etməkdədir [3]. O cümlədən 2025-ci il oktyabr ayının 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib ki, bu da tərəflər arasında mövcüd əlaqələrin inkişafı və birliyin güclənməsi yolunda olduqca önəmli bir addımdır. Bu görüşün mövzusu "Regional sülh və təhlükəsizlik" olmuşdur, İlham Əliyev tərəfindən regionda sülhün və təhlükəsizliyin təmin edilməsi məqsədilə Türk Dövlətləri Təşkilatı üzvlərinə 2026-cı ildə birgə hərbi təlimlərin keçirilməsi təklif edilmişdir [18].

Prezident İlham Əliyevin də vurğuladığı kimi, "Beynəlxalq təşkilat olan TDT bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır."

## Ədəbiyyat

1. Hacıyeva A. "Karabağ'ın Yeniden İnşasında Türk Şirketlerinin Rolü". VI. International New York Academic Research Congress On Humanities And Social Sciences Proceedings Book. – Türkiyə:  - "BZT Akademi Yayınevi". – 2022. – 446 s.
2. Türk dili konuşan ülkelerin işbirliği konseyi` nin kurulmasına dair Nahçıvan anlaşması. https://web.archive.org/web/20121024060432/http://www.turkkon.org/docs/02_a_NahcivanAnlasmasi_Turkce.pdf

3. Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Qarabağ Bəyannaməsi - 02 oktyabr, 2025. https://president.az/az/articles/view/66416
4. Türkiyədən Azərbaycana göndərilən minatəmizləyənlər uğurla sınaqdan keçib: [Elektron resurs] / - 10 fevral, 2021. https://oxu.az/ordu/turkiyeden-azerbaycana-gonderilen-minatemizleyenler-ugurla-sinaqdan-kecib-foto?ysclid=mbf1g4d4h6500553556
5. https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf
6. Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər: [Elektron resurs] / - 20 oktyabr, 2022. https://president.az/az/articles/view/57642
7. Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin üçtərəfli görüşü olub: [Elektron resurs] / - 13 noyabr, 2024. https://president.az/az/articles/view/67297
8. Azərbaycan və Qazaxıstan prezidentləri Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər: [Elektron resurs] / - 12 mart, 2024. https://president.az/az/articles/view/65310
9. Füzulidəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyətə başlayıb: [Elektron resurs] / - 01 oktyabr, 2024. https://apa.az/culture-policy/fuzulideki-kurmanqazi-adina-usaq-yaradiciliq-merkezi-fealiyyete-baslayib-869541
10. Qazaxıstan Qarabağ Universitetinə 15 müəllim göndərəcək - İngilis dilində dərs deyəcəklər: [Elektron resurs] / - 04 mart, 2025. https://bizim.media/az/cemiyyet/237637/qazaxistan-qarabag-universitetine-15-muellim-gonderecek-ngilis-dilinde-ders-deyecekler-foto/https://bizim.media/az/cemiyyet/237637/qazaxistan-qarabag-universitetine-15-muellim-gonderecek-ngilis-dilinde-ders-deyecekler-foto/
11. "Qardaşlaşmış Qarabağ Məktəbləri" layihəsi çərçivəsində keçirilən IV Yay Düşərgəsi başa çatıb: [Elektron resurs] / - 16 Avqust, 2024. https://addf.gov.az/yazi/477
12. Füzuli şəhərində Özbəkistanın inşa etdiyi məktəbdə son tamamlama işləri görülür: [Elektron resurs] / - 13 Noyabr, 2025. https://azerbaijan-news.az/az/posts/detail/fuzuli-seherinde-ozbekistanin-insa-etdiyi-mektebde-son-tamamlama-isleri-gorulur-1692504324
13. Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər: [Elektron resurs] / - 03 iyul 2025. https://president.az/az/articles/view/69308
14. Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində iştirak ediblər: [Elektron resurs] / - 25 aprel 2024. https://president.az/az/articles/view/65626

15. Füzuli bu türk şəhəri ilə qardaşlaşacaq: [Elektron resurs] / - 8 may, 2025. https://axar.az/news/siyaset/1002125.html
16. Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin iştirakı ilə Türkmənbaşı şəhərində sənədlərin imzalanması mərasimi olub: [Elektron resurs] / - 22 avqust 2025. https://president.az/az/articles/view/69940
17. Macarıstan Cəbrayılda məktəb inşa edəcək: [Elektron resurs] / - 6 İyun, 2024. https://modern.az/az/news/473603/
18. Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib: [Elektron resurs] / - 07 oktyabr, 2025. https://president.az/az/articles/view/70283

## THE ROLE OF THE ORGANIZATION OF TURKIC STATES IN THE RECONSTRUCTION PROCESS IN KARABAKH: PERSPECTIVES OF REGIONAL COOPERATION

**A.A. Hajiyeva**
Azerbaijan University, Baku, Azerbaijan
National Museum of History of Azerbaijan, Baku, Azerbaijan

**Abstract:** This study aims to scientifically evaluate the evolving prospects of cooperation among Turkic states and the influence of the Organization of Turkic States (OTS) in the post-war period in Karabakh. It explores humanitarian and infrastructure projects implemented within the OTS framework, as well as specific contributions made in the fields of education, healthcare, and other sectors. Furthermore, the article analyzes political statements and collaborative actions undertaken by member states, emphasizing the role of the OTS in regional reconstruction and integration processes.

**Keywords:** Organization of Turkic States, Karabakh, reconstruction, regional cooperation.